

HAFİZ ƏLİMƏRDANLI

## *Tək uğrunda qan tökülən torpağa Vətən dedilər*

Tək uğrunda qan tökülən, torpağa Vətən dedilər,
Ər babalar uyan yerə, qaldığım məskən dedilər.

Vətən mənə əmanətdir, məndən də övlada çatar,
Kimsə ona əl uzatsa, ən qəddar düşmən dedilər.

Bu torpaqda göz açmışdır neçə-neçə mərd ərənlər,
Tarixləri oxuyanlar onlara əhsən dedilər.

Şəhid qanı hər dağ-daşı, doğma Vətən etdi bizə,
Gör necə də məğrurdurlar, örtər duman-çən dedilər.

Dünya gülüstan olarsa, torpaqlarım susuz səhra,
Ürək söylər Vətəndir o, Vətənə gülşən dedilər.

Aləm görür təkrar-təkrar, Hafiz bu gün nə xoşbəxtdir,
Bu torpaqda yatacaqdır, gələrsə səksən dedilər.

***20-21.09.2021***

## *Gəl darıxma, həyat söylər*

Yenə uçur durna teli qatar-qatar,
Yenə fikrim xəyallarda alar qərar.

Sevən sevir, yazan yazır, keçir dövran,
İllər sanki zaman-zaman olur təkrar.

Varmı başqa bir yol, nədən kimsə bilməz?
Yazılsa da qayda-qanun tamam aşkar.

Bəs deyilmi insan oğlu hey çalışır?
Tanrı verən kitablardan düşmüş kənar.

Bölünmüşdür tayfa-tayfa, diyar-diyar,
Bölünmüşdür ulu Tanrı, pərvərdigar.

Daha nələr bölünəcək, Allah bilir,
Soruşma gəl, cavab çətin, fikrim azar.

Hələ bölmək istər insan bu dünyanı,
Gözlərini sərvət adlı tutmuş azar.

Bir ömürdə yüz ömürlük dövlət yığar,
Düşünmür heç yığdıqları onsuz qalar.

Fəryad edər qəlbim mənim ötən gündən,
Gələn gedər, torpaqları tutar məzar.

Xəyallarım hey aparır gələcəyə,
Nə qaniçən vardır orda, nə zülmükar.

Dolanırlar insanlar da sevda ilə,
Hər ürəkdə məhəbbətlə bir eşq yanar.

Həyat orda yaratmaqdır dayanmadan,
Aləm dönər gülüstanə, qəm azalar.

Neçə-neçə inci yazar sənətkarlar,
Neçə-neçə şah əsərlər tam yaranar.

Alimlərə dəyər verər dövran tamam,
Sirlər dolu xəzinəyə tapar açar.

Gəl Hafiza, xam xəyaldan ayrıl bir az,
O günləri görəcəkmi, sorar rüzgar?

İndi həyat söylər sənə, gəl darıxma,
Gələn günü Tanrı özü düzüb qoşar.

***29.10-01.11.2021***

## Qoy sevənlər oxusunlar

Cəfa ilə keçir ömrüm yarı görən gündən bəri,
Güman bəlkə əsən mehlər verər ona bu xəbəri.

Sən ey fələk, eylə kömək, qoy sönməsin eşqim mənim,
Soruş yardan bilirmi heç, varmı bu cövrün qədəri?

Nədən bilməz ol lalərux, sevda dolu ürək nədir?
Gecə əzab sonsuz olur, gözləyirəm hey səhəri.

Söylə bəlkə qəlbi daşdır, qəlbim dözməz indən belə,
Həyat verməz özgə sevda, görsəm yüzlərlə dilbəri.

El də bilir, hey deyirlər, dövrümüzün Məcnunu var,
Bircə kəlmə yar söyləməz, görsə əgər bu kədəri.

Ötüb zaman o günlərdən, indi dövran tam başqadır,
Yeni dastan yazmaq istər, çatmır qələmin hünəri.

Sən ey Hafiz, istərdim mən, götür ələ dəftər-qələm,
Qoy sevənlər oxusunlar, sevən qəlbin yox bənzəri.

***28.10.2021***

## Xan çinar

Görüşünə gəldim yenə, ey qocaman xan çinar,
Kövrəlmə gəl, ömür keçib, ötüb zaman xan çinar.

Yadındamı səninlə mən, sirdaş idim o günlər,
Qəlbimdəki sevinc, kədər, çıxmaz yaddan xan çinar.

Dildar ilə görüşlərdə səni həmdəm sandım mən,
Bir sən oldun şahid bizə, deyim candan, xan çinar.

Rəqiblərim qısqandılar, bu dostluğa əzəldən,
Dözdüm yenə, olsa boran, qalxsa tufan, xan çinar.

Yetirdi tək yarə məni, pıçıldaşan yarpaqlar,
Nəğmələrin hey səslənir, qəlbdə inan, xan çinar.

Saç demirəm, qaş ağarıb, gəldim yenə görüşək,
Gün gələr ki, xəbər gəlməz bu dostundan xan çinar.

Vidalaşaq, hər gələnin gedən günü yazılmış,
Pozulmaz heç, Tanrı vermiş, budur fərman, xan çinar.

Ey Hafiza, vaxt var ikən, çinarlardan yenə ək,
Qoy desinlər bu dünyadan getdi insan, xan çinar.

***07.10.2021***

## Xoşum gəlir

*Artıran söz qədrini sidq ilə qədrin artırar*
*Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz.*

***Məhəmməd Fizuli***

Bir söz desən şəkkər kimi, canə dərman, xoşum gəlir,
Söz qədrini bilənlərə versən ehsan, xoşum gəlir.

Söz xəlqimin sərvətidir, əsrlərdən xəbər verir,
Eşidənlər heyran olur, deyim candan, xoşum gəlir.

Dəyərli söz yadigardır, min il ötsə yaddan çıxmaz,
Silinməz heç ürəklərdən, edər cövlan, xoşum gəlir.

Deyilən söz bir açardır, sirlər dolu bir aləmə,
Ora dönər gülüstana, varsa bağban, xoşum gəlir.

İzhar qılsa yar qəlbini, qəlbim məgər pərvaz etməz?
Rəqib eşidərsə tamam, olar peşman, xoşum gəlir.

Söz uzağı yaxın eylər, həsrət dönüb sevinc olar,
Ol dildardan yetsə xəbər, gedər hicran, xoşum gəlir.

Həyata söz bəzək verir, onsuz aləm kimə lazım?
Sözlə gələr sevinc, kədər, deyim pünhan, xoşum gəlir.

Soruşma gəl, hər ötəndən, bilir ellər bu adəti,
Sevdalı qəlb söyləməz heç, qəti yalan, xoşum gəlir.

Hafiza, sən el dilində, qəzəl yazdın oxusunlar,
Hər sözündə bir məna var, tapar ünvan xoşum gəlir.

***28-29.09.2021***

## Bənzətdim yarı sənə

Bənzətdim yarı sənə, sərvi-xuraman söylədim,
Gördüyüm şux qamətə, qaməti canan söylədim.

Rəsmini gördüm tamam hər kitabda, şəkildə mən,
Tarix də sevir səni, ürəyim heyran söylədim.

Görkəmin zərbi-misal, düşmüş idi dildən-dilə,
Afərin yaradana, baxdıqca candan söylədim.

Yazılan qəzəllərdə çəkilibdir adın sənin,
Onları oxuyanda, yüz min dəfə can söylədim.

Yadigarsan gəncliyimdən, səni unutmaqmı olar?
Bir zaman şahid oldun, dildarə qurban söylədim.

Gəl məndən incimə sən, o günlərim necə oldu?
Ürəyimdə qaldı xəyal, bir də ki, hicran söylədim.

Hafiza, güman etdim, yar qısqanmaz ol sərvə kim,
Bu qədər tərifədin, eşqindən pünhan söylədim.

***23.09.2021***

# *İstədi*

Bir zaman könül həmdəm, candan əziz can istədi,
Ol canə çatmaq üçün dərdinə dərman istədi.

Nə qədər cövr görsə də, ürək dönməz, hey çırpınar,
Yaranan bu sevdadan, həyat imtahan istədi.

Bixəbər könül bilməz, nə cəfalar çəkər ürək,
Cəfanı dərk edənlər gör neçə dastan istədi.

Söylə bir nə sirdir bu, hər gözəli ürək sevməz,
Mənə bir söz demədən, ol yarı pünhan istədi.

Olsa dünya gözəli, qəlbə yatan tam başqadır,
Ürəyim canda qalan sərvi-xuraman istədi.

Bilmirəm heç nə zaman günlər gəldi, günlər getdi,
Dönməyə o illərə, xəyalım karvan istədi.

Gəzdiyim bağça-bağda sənsiz qalmaq istəmərəm,
Rəqib də güman etdi, yar başqa ünvan istədi.

Göz yaşı axıtmaram, kövrəlsə də qəlbim mənim,
Hər dövrün öz sevdası olmağa mehman istədi.

Sordular, Haiz söylə, həyatda istəyin nədir?
Tanrı verən ömür qədər, eşqini rəvan istədi.

***12-16.09.2021***

# *Tanrı bir sevda verərsə*

Tanrı bir sevda verərsə, şükr edərəm axşam-səhər,
Danışar hey bu sevdadan, bütün aləm axşam-səhər.

Yoxdur başqa bir istəyim, həsrət qala ondan ürək,
Həyatımda eşq olmasa, qalxar naləm axşam-səhər.

Onsuz həyat bir məhbəsdir, əzab ilə ötər günlər,
Bir damla eşq susuz cana olar məlhəm axşam-səhər.

Soruşma gəl sevgi nədir, cavab tapmaq çox çətindir,
Bəlkə ürək nəsə deyər, çəkərsə qəm axşam-səhər.

Dahilər də yazıb ondan, fəqət bitmir suallar heç,
Hələm neçə dastan var ki, yazar qələm axşam-səhər.

İndi tamam aşkar olub, sirlər dolu bu aləmə,
Yazılan hər dastan verər, yeni görkəm axşam-səhər.

Ey Hafiza, fikir etmə, bu ürək ki, səndə vardır,
Qəlbin dolar sevinc ilə, qədəm-qədəm axşam-səhər.

***08-09.09.2021***

# *Ürəklər bir döyünsə, özgə bir ünvan istəməz*

*Seyid Əzim Şirvaniyə təzmin*

"Aləmi eşq içrə cananın sevən can istəməz",*
Verilsə can dildarə, özgə xuraman istəməz.

Hər gülün öz aşiqi, hər Leylinin Məcnunu var,
Verilən canda cəfa, cəfada hicran istəməz.

Min ümid var gecələr, ol şama pərvanə gələr,
Bir gecə gəlməyəndə, ürək də mehman istəməz.

Xəyallar həmdəm olar, ötüb gedən günlər ilə,
Həsrətlə qəlb döyünər, onsuz gülüstan istəməz.

Açılsa səhər yenə, ey gülüzar, can açılar,
Yetərəm arzuma mən, könlü nigaran istəməz.

Ürəyi yar tutarsa, əqil cəlalı neyləyir?
Ucaldar eşqə saray, qızıldan zindan istəməz.

Ol saray iki qəlbdə, ikisi də bir ürəkdə,
Ürəklər bir döyünsə, başqa bir ünvan istəməz.

Dildarla bir məkanda, qış da dönüb bahar olar,
Qışda tufan da olsa, baharda leysan istəməz.

Tanrıdan istək budur, həyat ol cananla keçsin,
Neylərəm var-dövləti, həm dərd, həm dərman istəməz.

Hafiza, eşq yolunda canı ver ki, hamı desin,
Verdiyi candır qurban, başqa bir qurban istəməz.

***03-06.09.2021***

* *- misra Seyid Əzim Şirvaninindir*